Solmaz Amanova



# NAĞILLAR

84(5Az e)-4
Kiçi
H67

# ŞEİR, NAĞIL, TAMAŞA

## 2-ci SİNİF

Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 60658

2009 il

# SÜD QUYUSU

*Nağıl*



Uzaq keçmişlərdə bir şah vardı. Onun var-dövlətini dünya tutmurdu, lakin övladı yox idi.

Günlərin bir qünü şah münəccimi yanına çağırdı:

– Baxın, görün ulduzlar nə deyir, mənim varisim olacaqmı?

Münəccim ulduzlara baxıb şaha dedi:



– Şahım, gəl Səlimin qızı toxucu Gülzüm xanımla evlən.

– Necə, mən şah ola-ola toxucu qızla evlənim?

– Şahım, ulduzların dediyi budur ki,



„Şirvanşahlar sarayı". Rəssam Elbek Rzaquliyev.

yalnız Gülzüm xanım sizə varis verə bilər. Lakin bu işin bir şərti var. Sizin oğlunuz Mars planetinin himayəsi altında olacaq. Odur ki, sizin toy gününüzdə bütün xalq «xınayaxdı» mərasimində olmalıdır. Mars planetinin rəngi qırmızıdır, ona görə də bütün qonaqların əllərinə qırmızı xına qoyulmalı, daha sonra qonaqlar məşəllərə od vurmalı və tonqalların ətrafında yallı getməlidir. Əgər quşlar və daşlar dilə gəlib nəğmələr oxusa, çaylardan su əvəzinə süd axsa, yaşıl çəmənlərdə qızılgüllər və lalələr çiçək açsa, o zaman bütün bədbəxtliklər sizdən yan ötər.



*«Ovçuluq». XIX əsr.*
*Qarabağ qrupu. Xalça muzeyi, Bakı.*

– Qoy belə olsun! – deyə şah cavab verdi.

Həmin gün şah öz elçilərini zəngin hədiyyələrlə Səlimin evinə göndərdi. Səlim buna bərk təəccübləndi və eyni zamanda sevindi ki, onun kimi kasıb bir toxucunun evinə belə adlı-sanlı şəxslər elçi gəliblər. O, bir az düşünüb qızının şah ilə toyuna razılıq verdi.

Üç gündən sonra təmtəraqlı bir toy oldu və münəccimin bütün dediklərinə əməl edildi.

Ətrafdakı quşlar və daşlar dilə gəlib nəğmələr oxudu, çəmənlərdə güllər-çiçəklər açdı, camaat məşəllərin işığında yallı getdi.

Təkcə çaylardan su yerinə süd axmadı. Münəccim fikrə getdi:

– Bu bəlkə bir fəlakətdən xəbər verir?



*«Ana və bala».*
*Rəssam Eyyub Məmmədov.*

Bir müddət keçdi. Gülzüm xanımın oğlu oldu. Onun adını İsmayıl qoydular. Şahın sevincinin həddi-hüdudu yox idi. Bu xoş xəbər bütün ölkəyə yayıldı, lakin nə illah edirdilərsə, körpə ananın südün qəbul etməyib, elə hey ağlayırdı. Şah münəccimi çağırdı. Münəccim xeyli fikrə getdikdən sonra bunları söylədi:

– Ey böyük və müdrik şahımız, təcili qurban kəsilməlidir. Gülzüm xanım isə oğlunuzun himayəçisi olan Mars planetinin qəlbini yumşaltmaq üçün qırmızı boyalı xalçalar toxumalıdır.

Şah atının yəhərlənməsini əmr etdi və ova çıxdı. Onun ovu uğurlu oldu, çoxlu ceyran ovladı. Gülzüm xanım isə al boyaları ilə göz oxşayan «Qobustan», «Ovçuluq», «Narlı», «Sırt-çiçi», «Ləmpa», «Dərviş» adlı xalçalar toxudu...



Şah həmin gün Gülzüm xanımı, oğlunu, xalçaları və ceyranları da götürüb Bakı qalasındakı Süd quyusu pirinə gəldi.

Pirin yanında xalçaları yerə

döşədilər, ceyranları qurban kəsdilər, kasıbları, dərvişləri, yoldan ötüb-keçənləri yedirib-doydurdular.



Gülzüm xanım bütün gecəni Süd quyusunun başında dualar etdi. Birdən gördü ki, Mars planetindən odsaçan balaca adamlar ayrıldılar, Yerə enib onun toxuduğu xalçaların üstündə əyləşdilər, yemək dolu qabları yaxına çəkdilər, doyunca yedilər. Sonra isə körpə oğlanı anasının titrək əllərindən alıb Süd quyusuna atdılar. O dəqiqə quyu qaynadı, ondan dümağ süd köpüklənib qalxdı. Uşaq köpüklü südün üstündə gülümsünürdü.



Gülzüm xanımın qorxusundan dili söz tutmurdu:

– Bizdən qorxma, biz sənin oğlunu qoruyacağıq. İsmayıl çiçəklənən Odlar ölkəsinin ən müdrik və güclü hökmdarı olacaq.

Odsaçan balaca adamlar bunu deyib yoxa çıxdılar.

Şahın oğlunun Günəş parçası kimi işıq saçdığı barədə xəbər hər yana yayıldı. Quyudan isə o qədər süd axdı ki, ölkənin bütün uşaqlarına bəs etdi.



Bax, bizim qədim Bakıda belə bir quyu varmış.

Göydən üç alma düşdü, biri İsmayılın, biri sənin, üçüncüsü isə Azərbaycanın bütün balaca uşaqlarına bu nağılı danışan dərvişin.

## GÜL ADAM

Hələ çox qədimlərdə, insanların mağaralarda yaşadığı zamanlarda bir qoca var idi. Adı Xnı idi. Hər gün o qəbilənin uşaqlarını da götürüb meşəyə giləmeyvə, gül və müxtəlif dərman bitkiləri toplamağa gedər, qayıdandan sonra isə yığdıqlarından dərman düzəldərdi. Qəbilə ovçuları tez-tez ovdan yaralı dönərdilər. Bax bu zaman Xnı babanın sehrli məlhəmləri köməyə gələrdi. Bu məlhəmlərlə sarınan yaralar tez sağalar, ovçular yenidən ov dalınca yollanardılar.

Bu qəbilənin ovçuları güclü və qüvvətli idilər. Yıxılanda ayaqları sınmazdı, dişləri ilə nəyi desən, parçalaya bilərdilər. Bu Xnı babanın məlhəmlərinin möcüzəsi idi.

Bir səhər qocalıq özünü göstərdi. Xnı baba ömrünü Tanrıya bağışladı. Nəvələri çəmənlikdən ən ətirli



gülləri toplayıb, onun cənazəsi üstünə səpdilər.



Beləcə, qoca güllər arasında öz ömrünü başa vurdu. Aylar keçdi. Xnı babanın məzarını çəhrayı incə çiçəkli kol bürüdü. Uşaqlar bu çiçəkləri dərib saxsı güldanlara yığıb, onunla mağaralarını bəzədilər.

Günlər keçdi. Saxsı güldanlardakı güllər soldu. Uşaqlar qüllərin quru yarpaqlarını ovub, un kimi etdilər. Ətrafı xoş ətir bürüdü. Onlar ovub yumruladıqları bitkiyə su tökdülər, əlləri ilə əzib, yaşıl kütləyə çevirdilər. Əllərindən də gözəl ətir gəldi. Sonra əllərini ha yudular, qızarmış ovucları və barmaqları ağarmadı. Qadınlar onu isladıb saçlarına sürtdülər, əl və ayaq dırnaqlarını boyadılar. Sonra bu bitki unundan toylarda istifadə etdilər. Beləcə, Xnı babanın şərəfinə adlanmış xına meydana gəldi. Biz bu gün də ondan istifadə edirik.

Məzarların üstünə çiçək qoymaq isə o zamandan başlayaraq adət halını atdı.



İnsan doğulandan bu günə qədər dərrakəli olub. O, eynilə bizim kimi sevinib və kədərlənib.

# İBN SİNA VƏ BƏHMƏNYAR


«İbn Sina».
Rəssam Mikayil Abdullayev.

Hələ lap qədim zamanlarda insanlar oddan istifadə etməyə başlayıblar, amma onu saxlamağı bacarmayıblar. Bəzən yanan tonqala odun atmağı unudublar. Beləliklə də od sönüb, amma dəmirçixanada həmişə od olurdu. Kəndlilər dəmirçidən od istəyə, yaxud köz ala bilərdilər.

Bəhmənyar adlı kiçik bir oğlanın yaşadığı ailədə belə bir əhvalat baş verdi. Bir gün onların ocaqları söndü. Anası Bəhmənyarı dəmirçinin yanına od üçün göndərdi. Bəhmənyar dəmirçixanaya getdi. Bu zaman loğman İbn Sina bu dəmirçixanada öz təcrübələrini aparırdı.

Bəhmənyar İbn Sinaya müraciət edib dedi:

– Xahiş edirəm, mənə od verin.

– Oğul, mən odu hara qoyum?

Bəhmənyar tez qaçdı, bir ovuc torpaq götürüb gəldi. Ovucunu uzadıb dedi:

– Bura qoyun.

İbn Sina belə də etdi. Ovcunun ortasında od tutmuş oğlanın düşünmə qabiliyyəti alimi valeh etdi. Bir qədər fikirləşib, oğlana dedi:

– Mənim şagirdim olmaq istəyirsən?

– Əvvəlcə atamdan icazə alım, sonra deyərəm.

Beləcə, gələcək filosof Bəhmənyar böyük əsərlərin, ixtiraların müəllifi İbn Sinanın şagirdi oldu.



***«İbn Sinanın Bəhmənyarla görüşü».***
*Rəssam Elçin Aslanov.*

# ÜZEYİR HACIBƏYOV





«Arşın mal alan».

*Qızılla cızılıb yazdığı hər not,*
*Sehrli dünyaya çağırır bizi.*
*Sökülür qaranlıq, yayılır şəfəq,*
*Harada duyulsa, sənətin izi.*

*Üzeyir musiqi məbədgahımız,*
*Yazıb yaratdığı əsrlərə pay.*
*«Leyli və Məcnunu» dillər əzbəri,*
*Ustad sənətkara məgər varmı tay?!*

*Vətəni Şuşanı kədərlə, qəmlə,*
*Ruhu göy üzündən daim seyr edir.*
*Onun «Koroğlu»su qollara qüvvət,*
*Döyüşə gedənə sonsuz güc verir.*

*Qoruyub bir qızıl külçəsi kimi,*
*Nəsildən-nəsilə ötürək onu.*
*Çətin ki, dahiyə olan sevginin,*
*Nə vaxtsa yetişsin həyatda sonu.*

## *QOÇU ƏSGƏRİN KEÇİSİ*



İsti yay günü idi. Hamı evə çatmağa tələsirdi. Günün yandırıcı istisindən ağac kölgəsinə çəkilənlər də çox idi. Bir tərəfdən də küçədə hərəkət dayandı. Heç kəs də bunun səbəbini bilmirdi. Dayanacaqda kimsə pıçıltı ilə ətrafdakılara dedi:

– Ay camaat dağılın! Qoçu Əsgərin keçisi konka yolunun üstündə yuxuya gedib. Bunu eşidən hər kəs bu yerdən uzaqlaşmağa tələsdi, bir-birinə pıçıltı ilə bu xəbəri çatdıra-çatdıra dağılışdılar.

– Ay camaat, Allah eləməsin! Kim keçini oyatsa, Qoçu Əsgər onun da beynini tüstüylə doldurar, hələ üstəlik yoldan keçənlərin də.

– Qorodovoy hara baxır? Bu vicdansız keçi bizə göz verir, işıq vermir. Gündə bir iş törədir. Bazarda bütün göyərtiləri yeyir, kişmişi, fındığı həzmi-rabedən keçirir… Heç kəs də ona barmağının ucuyla belə toxuna bilməz.

Camaat öz aralarında pıçıldaşırdı.

Şəhərin o biri başında isə xəbər gedib qorodovoya çatmışdı. Xeyli fikirləşəndən sonra o, belə qərara gəlmişdi ki, əsgərləri göndərib keçini oradan qovdursun.



Keçi isə istidə konka yolunun üstündə qollu-budaqlı tut ağacının kölgəsində mışıl-mışıl yatmaqda idi. Sırtıq və arxayın keçi, əmin idi ki, onu buradan qaldırmağa heç kəs cəsarət etməz. Elə bu səbəbdən sakit və sərin guşədə uzanıb, rahatlığın səfasını dadırdı. Gələn-gedən onun həndəvərindən barmaqlarının ucunda keçib gedirdi.



Elə bu vaxt əsgərlər gəlib yetişdi:

– Dur, dur burdan, cəhənnəm ol! Tez elə, – deyə əsgərlərdən biri çəkməsinin burnu ilə keçini dümsükləyib çığırdı.

– Mə-mə... – keçi mələdi.

Konka öz yoluna davam etdi.

Üzbəüz küçədə çayxanada oturan Qoçu Əsgər keçinin səsini eşidib, güllə kimi bayıra atıldı. Tapançasını çıxarıb, havaya bir-iki güllə buraxmaq istəyirdi ki, əsgərləri gördü. Dodaqaltı:

– Öldürəcəm, hamınızı, – dedi.

Keçi isə sağ-salamat ona tərəf qaçdı.

– Can, mənim əzizim. Sənə əl vuranın canını alaram, – deyib Qoçu Əsgər onu qucaqladı.

– Mə-mə... – keçi əsgərlərə tərəf baxıb şikayət edirmiş kimi mələdi.

Bax belə... Bu hadisə ötən yüzillikdə Bakıda baş vermişdi. «O olmasın, bu olsun» filmində siz yəqin ki, buna bənzər əhvalatın şahidi olmusunuz.



*Qədim Bakı. «Konka».*

# MƏDRƏSƏ



*«Molla».*
*Elmira Abbaslının işi.*

Sübh tezdən balaca Əzim yuxudan sevincək oyandı, axı o da yaxın dostları kimi mədrəsəyə gedəcəkdi.

Atası ona dedi:

– Oğlum, yaxşı oxu, böyükləri dinləməyi bacar, heç kəsin xətrinə dəymə, sən yaxşı molla olacaqsan.

– Ata mən molla olmaq istəmirəm.

Anası dedi:

– Oğlum, narahat olma hər şey yaxşı olacaq, hələlik isə sən atanın sözünə qulaq as, – deyə anası ona xeyir-dua verdi. Heybənə pendir-çörək və alma qoymuşam. Yadından çıxmasın, fasilədə yeyərsən.

Anası Əzimi atası ilə mədrəsəyə yolladı.

Mədrəsənin həyətində çoxlu uşaq toplaşmışdı. Hamı böyük bir otağa daxil oldu. Masa arxasında molla otur-



*«Mədrəsə». Rəssam Əzim Əzimzadə.*

muşdu. Onun əlində uzun çubuq var idi. Hamı döşəmənin üstündə əyləşdi. Əzim döşəkçənin üstündə oturdu, heybəsindən dəftər-qələm çıxarıb, diqqətlə müəllimə qulaq asdı. Dərs çox maraqsız keçirdi. O, heç kəsə bildirmədən şəkil çəkməyə başladı. Əzim əlində uzun çubuq, qəzəbli, kosasaqqal mollanın şəklini çəkirdi. Birdən onun kürəyinə ağrıdıcı zərbə dəydi:

– Sən nə edirsən? – Deyə molla qışqırdı.

Əzim cavab verdi:

– Şəkil çəkirəm.

– Bu kimdir? Belə qorxulu, bədheybət, adama oxşamaz mənəm?

Molla Əzimin qulağından yapışıb qapıdan bayıra qovdu.

Əzim ağlamağa başladı, gözlərinin yaşını silə-silə evə qayıtdı. O, bir daha mədrəsəyə getmədi. Onsuz da ondan molla çıxmayacaqdı. İllər ötdü, Əzim gimnaziyanı, sonra isə rəssamlıq məktəbini bitirdi.

Bu gün rəssam Əzim Əzimzadənin adı hər bir azərbaycanlı üçün doğmadır.



*«Qədim Bakı tipləri». Rəssam Əzim Əzimzadə.*

# ÖRDƏK



*Mirəli Təbrizi – azərb. kalliqrafı.*
*Rəssam Elmira Şaxtaxtinskaya.*

Keçmiş zamanlarda Təbrizdə Mirəli adlı kiçik bir oğlan yaşayırdı. O, oxumağı olduqca çox sevərdi. Ətrafdakılar hamı onun zəhmətsevərliyinə heyran qalardı. O, bütün günü, bəzən də gecələr ay işığında yazı yazmağı öyrənərdi. Onun çoxlu müəllimləri var idi. Bunlar – Mübarək şah Təbrizi, Cəmaləddin Müstəsimi, Əhməd Suxrədi. Onlar hamısı çox gözəl xətlə yazardılar. Onlar altı ən məşhur dəstxətlə – sulis, müxəqqəq, toyuğu, nəsx, reyhani və reqə xətləri ilə yaza bilirdilər. Mirəli də bu xətləri öyrənmişdi, amma bu onun üçün çox az idi. O, yeni bir xətt yaratmaq istəyirdi. Gözəl xətlə yazılmış müqəddəs Quran onun masaüstü kitabı idi. Quran kitabındakı hər bir hərfə ayrılıqda tamaşa etməkdən zövq alırdı.



Günlərin bir günündə, yazmaqdan yorulmuş Mirəli yarıqaranlıq daxmada yuxuya getdi. O çox qəribə bir yuxu gördü. Yuxuda birinci imam ona belə söylədi: «Ey, Allahın qulu! Düzgün və dəqiqliklə ördəkləri müşahidə et. Onları dərk edəndən sonra xüsusi bir xətt yarat. Ördəyin gözlərinin, dimdiyinin, boğazının şişkinliyinə və dartımına diqqətlə nəzarət etsən istədiyini alacaqsan!»

Yuxudan ayılmış Mirəli yerindən durub tez gölün kənarına qaçdı. O, yuxusunu mavi sulara pıçıldadı və Allaha dua edərək belə söylədi: «Ey, böyük Tanrı, belə gözəl yuxu üçün sağ ol. İndi mən bildim ki, necə yazmaq lazımdır!» Qamışlığın arasında gizlənən Mirəli saatlarla ördəklərə tamaşa etdi.

Beləliklə, Azərbaycan kalliqrafları – xəttatları arasında Mirəli çox məşhur nəstəliq xəttini yaratdı.



*Mirəli Təbrizi, xətt nümunəsi.*



## QƏDİM OYUNLAR

*Nağıl*

Biri var idi, biri yox idi, qədim zamanlarda bir şah var idi. Bu şahın üç oğlu var idi. Uşaqlar bütün günü sarayda və bağda oynayır, çayda çimir, ağaca dırmaşır, at çapır, ovçuluq və gizlənpaç kimi oyunlarla vaxt keçirirdilər. Şah öz oğullarına tam sərbəstlik verir, onları çox sevir və əzizləyirdi. Şah onlara tərbiyəçilər tutmuşdu. Bu tərbiyəçilər uşaqlara savad və müxtəlif oyunlar öyrədirdi.

İllər tez ötüb keçdi və balaca oğlanlar böyüyüb gözəl və boy-buxunlu gənclərə çevrildilər. Onların evlənmək vaxtı çatmışdı. Şah oğullarını yanına çağırdı və onlara dedi:

– Nərdşir, Şahmat, Çövgi, siz artıq böyümüsünüz və özünüzə nişanlı seçmək vaxtınızdır.

Oğlanlar dedi:

– Ata, bizim mahalda bizə layiq qız yoxdur.

– Bir halda ki, bizim qızlar xoşunuza gəlmir, onda səhər tezdən ən yaxşı atlara minin və uzaq ölkələrə üz tutun. Bircə onu yadda saxlayın ki, üç aydan gec olmayaraq siz evə öz nişanlınızla birlikdə dönməlisiniz. Toylarınızı da birlikdə edəcəyəm.

Səhər açılan kimi üç qardaş yola düşdülər. Bir yol ayrıcına çatanda, üç aydan sonra bu yerdə görüşməyi şərtləşib, bir-birindən ayrıldılar.

Qardaşlar meşələri, dağları, çayları və çölləri keçə-

rək böyük dövlətlərin torpaqlarına yetişdilər. Böyük qardaş – Nərdşir İrana gəlmişdi. Bazarda eşitdiyi söhbətlərdən başa düşdü ki, şah öz qızını oyun yarışlarında qalib gələnə verəcək, buna görə də dünyanın hər yerindən gənclər buraya axışıb gəlmişlər.

Nərdşir fikirləşdi ki, o da öz bəxtini sınasın. Elə bu vaxt səs-küy eşitdi, piyadalar və atlılar hamısı üzü üstə düşdülər. Şah qızı nökər və qulluqçuların əhatəsində taxt-rəvanda əyləşmiş halda gəlirdi. Nərdşir özünü saxlaya bilməyib gözəl şahzadə Fərizəni görmək üçün başını qaldırdı, onun gözəlliyi ilk baxışdan Nərdşirin ağlını başından aldı. Şahın nökərləri bu həyasızlığına görə Nərdşiri tutub şahın yanına apardılar.



– Ay yaramaz! Sən nə cəsarət edib mənim qızıma baxdın? – Deyə şah hiddətləndi.

– Ey böyük hökmdar, mən qızınızın şərəf və ləyaqətinə toxunmaq istəməzdim, mən öz günahımı yumağa hazıram, – deyə Nərdşir dilləndi.

Gəncin cavabı şahın xoşuna gəldi:

– Sən kimsən? Adın nədir?

– Nərdşir.

KİTABXANASI
İNV. № 60657

– Sən ömrünün qalan hissəsini mənim zindanımda keçirəcəksən, – deyə şah öz hökmünü verdi.

– Ey böyük hökmdar, mənə qəzəbiniz tutmasın.

– Yaxşı, mən səni məhv etmərəm və sənə oyunlarda iştirak imkanı verərəm.

– Qoy belə olsun, – deyə gənc dilləndi.

– Onu zindana aparın və şah emalatxanasında çalış-

masına icazə verin, qoy öz oyunu ilə mənim xalqımı necə heyrətləndirmək düşünsün.

Beləliklə, Nərdşir İran şahının zindanına düşdü.

Nərdşir 15 gün, 15 gecə zindanda qaldı. Gecələr pəncərədən ulduzları müşahidə edirdi, Mars planeti onun xoşuna gəlirdi. Öz vətənini, anasını, atasını, qardaşlarını, xatırlayırdı. Baharda hər yan gözəlləşir, yayda onların bağında dadlı meyvələr, payızda nar yetişir, qışda isə dağlar qar örtüyünə bürünürdü. Onun ürəyindən evə qayıtmaq keçirdi, lakin qarşıda oyunlar dururdu və o, bu oyunlarda qalib gəlməli idi. Nərdşir çox fikirləşirdi. Beləliklə yeni bir oyun düşünüb tapdı və onu öz adı ilə adlandırdı. Yarış günü gəlib çatdı. Onu zindandan buraxdılar. Yarışlarda şahın qızını istəyən gənclər qüvvələrini sınayır, pəhləvanlar, kəndirbazlar, qaçışçılar, oxatanlar, uzunluğa tullananlar və başqaları öz bəxtlərini sınayırdılar. Nərdşir əlində qəşəng naxışları olan bir qutu tutmuşdu. Bu qutunu şahın emalatxanasında çalışarkən hazırlamışdı.

– Ey böyük şah! İcazə verin sizinlə nərd oynayım, – deyə Nərdşir xahiş etdi.

– Axı, mən bilmirəm bu necə oyundur? – deyə şah boyun qaçırmaq istədi.



– Mən sizi öyrədərəm – bunlar daşlardır, sayları otuzdur, bu da 1 ay edir, on beşi qara (gecə), on beşi ağ (gündüz). Bu isə zərdir, Kəbəni xatırlatsın deyə onu kub şəklində hazırlamışam. Hər üzündə rəqəmlər var: Yek – 1 – Allahın adıdır;



Dü – 2 – cənnət və cəhənnəm; Sə – 3 – insanat, heyvanat, nəbatat; Cahar – 4 – od, su, hava, torpaq; Pənc – 5 – duyğular (görmə, eşitmə, dadbilmə, qoxu, toxunma); Şeş – 6 – sağ, sol, arxa, ön, yuxarı, aşağı; xanalar – 24 – bu sutkada 24 saatı bildirir, dörd bölmə isə – yaz, yay, payız, qış deməkdir. İki uduş «mars» adlanır. Mars qırmızı planetdir.

Oyun şahın və bütün sarayda olan adamların xoşuna gəldi. Nərdşir qalib gəldi və şah qızını ona verdi.

Nərdşir şahzadə Fərizə ilə həmin yol ayrıcına dönəndə digər iki qardaşının başına nələr gəldiyi onu çox düşündürürdü.

O, qardaşı Şahmatı öz nişanlısı İndiana ilə birlikdə bəzədilmiş böyük bir filin belində əyləşmiş gördü. Bəlli oldu ki, Şahmatın başına da eynilə belə bir əhvalat gəlib və o, öz adı ilə «şahmat» adlandırdığı bir oyun düşünüb tapmışdır. Bu oyunun vətəni Hindistan sayılır.

Çövgi isə gözəl Qarabağdan gətirdiyi gözəllər gözəli Natəvan xanımla yaraşıqlı bir Qarabağ atının belində idi. O da öz oyunu və at çapmağı ilə hamını heyran qoymuşdu. Bu oyuna «çövkən» adını vermişdir. Bu oyunun vətəni Azərbaycan və Orta Asiya sayılır.




Beləliklə, üç qardaş gözəl nişanlıları ilə saraya gəldilər, şah onlara yeddi gün, yeddi gecə toy etdi.



# *HAKİMİYYƏTİN RƏNGİ*



## *1-çi hissə*

## *BİRİNCİ SƏHNƏ*

***Luvrun qarşısındakı meydanda şarmanka səslənir. Uşaqlar müəllimlə muzeyin girişində dayanıblar. Eyni zamanda küçədə bayram yürüşü keçirilir – rəngbərəng geyimli məzhəkəçilər fransız musiqisi sədaları altında rəqs edir və uşaqları bayram şənliyinə dəvət edirlər.***



***Müəllim:***

Uşaqlar muzeyə girin, bu məkan,
Nağıllar dünyası olub hər zaman.
Baxın şəkillərə, necə qəşəngdir,
Bu, qumlu səhrada açan çiçəkdir.
Nağıl aləmindən Ələddin, Jasmin,
Sehrli çıraqdır və bir də ki, cin.
Bu da Nizaminin «Yeddi gözəl»i,
Keçmişik sizinlə biz bu əsəri.





***Şagird qız:***

İnnabı don geyən kəndli qıza bax!
Onu qamçılayır bir neçə axmaq.



***Şagird oğlan:***

Yüz nəfər dövrəyə alıbdır onu,
Bulaşıb torpağa innabı donu.



***Şagird qız:***

Qızın bağrına basıbdır ana,
Gözləri sevgiylə dikilib ona.

***Müəllim:*** Pannoda Elizabet öz qızı ilə,
Məşhurdur bu şəkil gözəlliyilə.
Bu bir nağıldır, bu bir yaraşıq,
Pannodan ətrafa yayılır işıq.
Yavaşca qapayın gözünüzü siz,
Sehrli yurda var səyahətimiz.

## ***İKİNCİ SƏHNƏ***



*(Paris. 1789-cu il. Emalatxana. Luiza molbertin qarşısında dayanıb. Qızının şəklini çəkmək istəyir. Fransız melodiyası səslənir).*

***Qız:*** Ana, qoy səninlə yanaşı durum,
Mən də öz şəklimə qırmızı vurum.

***Ana:*** Ay qızım, bir saat sakit otur sən,
Ətraf qarışacaq sən şəkil çəksən.



***Qız:*** Əvvəl nağıl danış, sonra şəkil çək,
Axı darıxaram, burda qalsam tək.

***Ana:*** Necə susdurum mən bu dəcəl qızı,
Qoy bilsin, yaranıb nə vaxt qırmızı.
İlk dəfə kim geyib qırmızı donu,
Nə olub bu donu geyməyin sonu.

***Qız:*** Hə ana, tez elə, danış nağılı,
***Ana:*** Danışsam qızımın artacaq ağlı



Qədim zamanlarda bir qoca vardı,
Qoca bütün günü balıq tutardı.
Gündüzü gecəyə qatardı qoca,
Yorulub sonunda yatardı qoca.
Dualar edərdi Ulu Tanrıya,
İşini qoymazdı heç vaxt sonraya.
Bir gün gəlib gördü kükrəyir dəniz,
Sahildə qalmayib bir ləpir, bir iz.
Dalğalar atını çapır dörd nala,
Qoca yer tapmadı torunu sala.

## *ÜÇÜNCÜ SƏHNƏ*

*(Dənizin sahili. Dalğalar şahə qalxıb balıqçının qayığı və əşyaları yoxa çıxıb).*

***Balıqçı:***



Başıma gəlibdir qəribə bir iş,
Bu necə taledir, bu necə gərdiş?
Tanrı qurbanların verməmiş bu il,
Yoxsul balıqçını etməyin zəlil.
Dalğalar, dadıma çatın nə olar!
Mənim də payıma düşən qismət var,
Allahlar yığışıb, gəlsin köməyə,
Çox dərdim, azarım vardır deməyə.
Çapır Afrodita, gəlir Poseydon,
Bəlkə, kədərimə qoyulacaq son.
Amma Allahlardan gizlənim gərək,
Dalğa da yatıbdır, əsməyir külək.

*(Qayanın arxasında gizlənir).*



## *DÖRDÜNCÜ SƏHNƏ*

*(Dənizdən dənizlər padşahı Poseydon*
*çıxır, Afrodita isə səmadan enir.*
*Onlar sahildə görüşürlər).*

***Afrodita:***

Poseydon, nə gözəl rəngli dünyan var,
Xoşbəxtdir qonağın, dostun olanlar.
Tezliklə olacaq tanrılar balı,
Qoy olsun hüsnündən hər bir kəs halı.



***Poseydon:***

Heç nə soldurmayıb bu gülər üzü,
Hamıdan gözəlsən, əzizim, düzü.
Gün-gündən daha da gözəlləşirsən,
Mənsə qocalıram, bax bundadır qəm.



***Afrodita:***

Balda gözəl olmaq istəyirəm mən,
Bunun öhdəsindən tək sən gələrsən.

***Poseydon:***

Bu mənim əlimdə çətin iş deyil,
Balda səndən gözəl olmayacaq bil.

*(Poseydon gözləri ilə arayır, qəfildən qayaya sarı gəlir, qayaya çatmamış əyilib yerdən balıqqulağı götürür, və ovcunda əzib toz halına salır).*

***Poseydon:***

Ver mənə donunu, əzizim, tez ol,
Bir bax, gözəlliyə açılıbdır yol.

*(Afroditadan donu alıb qırmızı rəngə boyayır).*

***Afrodita:***



Nə gözəl rəngdir bu, bir əfsanədir,
Yoxdur yer üzündə, bircə dənədir.
Kimdə ola bilər belə gözəl don?
Yolçu yolda gərək, sağ ol, Poseydon!

## ***BEŞİNCİ SƏHNƏ***

*(Afrodita və Poseydon vidalaşırlar. Afrodita səmaya qalxır, dənizlər sultanı Poseydon isə dənizə girir).*

***Balıqçı:***

Sirrə bax, sehrə bax, təsadüfə bax!
Başqa möcüzə yox, bugünkü sayaq.

*(«Murex» balıqqulağını götürüb, əzməyə bir şey axtarır).*









Bunu toz halına salmaq gərəkdir.
Bu ki, var-dövlətdir, bu ki, çörəkdir.

*(Balıqqulağını əzir, su ilə qarışdırıb qırmızı rəng alır. Allaha şükür edir, dəniz suyunu öpür, sevincindən atılıb-düşür, balıqqulağını sığallayır).*

**Balıqçı:**



Allahlar, qurbanlar verəcəyəm, mən,
Bu sirri bilməsin hər yoldan ötən.
Sevincdən qəlbimdə kədərə yer yox,
Sevirəm torpağı, dənizi mən çox.

*(Balıqçı dənizi öpür, kənddəki dükana qaçır, çoxlu ağ parça alır, əzizləri ilə vidalaşıb dənizin sahilinə dönür. Balıqqulaqlarını yığıb toz halına salır. Aldığı parçanın hamısını al rəngə boyayır. Al rəngli parçanı götürüb saraya yollanır).*



## ALTINCI SƏHNƏ

**Balıqçı:** Məni tez saraya buraxın, haydı.

**Nökər 1:** Bu nə qışqırıqdı, bu nə haraydı?

**Nökər 2:** Bu bir dilənçiyə, yoxsula taydı.

**Nökər 1:** Dəhşət, səfilliyə, nadanlığa bax!

**Nökər 2:** Saraya soxulmaq istəyir axmaq.





***Balıqçı:*** – Saraya hədiyyə aparıram mən,
Böyük İmperator alıb, olsun şən.

***Nökər 2:*** Bunu əvvəlcədən deyəydin gərək,

***Nökər 1:*** Buyur, gəl içəri, addımla görək.



*(Nökərlər balıqçını imperatorun yanına buraxırlar. Qızlar rəqs edir, küncdə arfa qoyulub. Gözəl musiqi sədaları ucalır).*

***Balıqçı:*** Hökmdar, sənindir bu innabı rəng!



***İmperator:*** – Gör necə gözəllik, gör necə ahəng!
Bu gündən kasıblıq sənə yad olsun,
Qəlbin rahat olsun, könlün şad olsun.



Bu rəng hakimiyyət rəngi seçilsin,
Bunun şərəfinə şərab içilsin!

*(«Sirtaki» rəqsi. Qızlar qırmızı paltarlarda rəqs edirlər).*





***Aparıcı:***

Rəngdən-rəngə düşüb, dəyişib həyat.
İllər ötüşübdür, yaş keçib heyhat.
İnsan köçüb gedib, qalıbdır izi.
Həyatda iz qoymaq yaşadır bizi!

## *YEDDİNCİ SƏHNƏ*

*(Luiza Vebrejen Elizabetin emalatxanası).*

***Ana:***

Şəkil hazır olub, qurtardı nağıl,
Onu anlamağa gərəkdir ağıl.

***Qız:***

Çox sağ ol, nağıla görə, anacan,
Nədənsə qəlbimə dolub həyəcan.
Mən mavi dondayam, sənsə ağappaq,
Nə vaxt qıpqırmızı donum olacaq?
Bəs niyə qırmızı geyinmirik biz,
Geyinək, sevinib – gülsün qəlbimiz.

*Ana:* Qırmızı qurtarıb qalıbdır çox az,
Kəmərdən başqa bu heç nəyə çatmaz.
Belinə bağlarsan, bir də başına,
Mavi don yaraşır sənin yaşına.

*Qız:* Kasıblar geyməyib qırmızı donu,
Axı kim qadağan edibdir bunu?

*Ana:* Bu əmri veribdir yunan hakimi
Padşahlıq taxtına əyləşən kimi.
Şərqin bir padşahı dəyişib bunu,
Qaytarıb kasıba qırmızı donu.

*Qız:* De, ana, sonrası olubdur necə?

*Ana:* Bir padşah yuxuda görübdür gecə,
Bir kəndli qız ağlayir, qanlı yaş tökür.
Gözəl bənizinə qaranlıq çökür.
Qızın ətrafında çoxlu insan var,
Əl-ələ bir halay qurmuşdur onlar.

*Qız:* Anacan, nağılı tez danış mənə.


«Müqəddəs şəhər». Rəssam Ağəli İbrahimov.



«Vəzir».
Elmira Abbaslı.

# İNNABI RƏNG BİZƏ MƏXSUSDUR!

## 2-ci hissə

## SƏKKİZİNCİ SƏHNƏ

***Şah istirahət edir. Nəğmə dinləyir və yuxuya gedir. Ayılanda vəzirə əmr edir ki, münəccimi çağırsın.***

***Şah:***

Çağır münəccimi gəlsin saraya,
Bəlkə, dərman bilə, o bu yaraya.
*(Vəzir mücrüdən kitabı verir).*



***Münəccim:***

De, şahım, dərdinə, tapaq əlacı,
Yozumu olsa da nə qədər acı.

***Şah:***

Bu gecə röyada bir gözəl gördüm,
Bənizi təzətər çiçək kimiydi.
Donunu tonqalda yandırırdılar,
Alovlar içində ləçək kimiydi.
Qara gözlərində vardı yalvarış,
Alov millənmişdi göyə beş qarış.
O yerdə çiçəkli ağac da vardı,





Ağac da od tutub sanki yanırdı.
Çapırdı qırmızı atlı bir çapar,
Kim görsə, qəlbində həyəcan artar.
Qızın ətrafında çoxlu insanlar,
Əl-ələ bir halay qurmuşdu onlar.

*Şah:*

Münəccim, tez elə, yoz bu yuxumu,
Çıxart ürəyimdən bütün qorxumu.

*Münəccim:*



Şahım, baş əyirəm önündə sənin,
Olmasın cahanda heç bir düşmənin.
Sənin sirli yuxun, bir ip yumağı,
Mənə buyurmusan onu yozmağı.
Gördüyün o gözəl, çiçək kimi tər,
Ay kimi bənizi olan bir dilbər.
Bir gəncə ürəkdən, qəlbdən vurulub,



«İnnabı rəng bizə məxsusdur!»
Rəssam Əzim Əzimzadə.



Büllur bulaq kimi axıb, durulub,
Görüşə gedəndə, geyib qırmızı,
Bu rəng al çiçəyə döndərib qızı.
Cəza olsun deyə, tonqal çatılıb,
Qızın al paltarı oda atılıb.
Tonqal işarədir yetişən yaza,
Qırmızı atlı da toya, muraza.



***Şah:***



Onda əmr edirəm bu gündən belə,
Qırmızı xonçalar paylansın elə.
Kəlağayı örtüb, şərbət içsinlər,
Gəlinlər qırmızı donda köçsünlər.

***Vəzir:***

Nə gözəl yuxudur, şahım, nə gözəl
Qırmızı geyinsin hər köçən gözəl.



***«Kuklalar».*** *Elmira Abbaslı.*

# *TURAC*




Biri var idi, biri yox idi, qədim zamanlarda Turac adlı bir qız qəddar xanın evində qulluqçu işləyirdi. Xanın arvadı onu tez-tez döyüb cəzalandırırdı, ac saxlayıb, köhnə paltarda gəzdirirdi. Günlərin bir günü xanın arvadı Turacı çağırıb ona dedi:

– Ay qız, su qızdır, mənim başımı və ayaqlarımı yu!

Turac su qızdırdı. Darağı götürmək istəyəndə gördü ki, qoyduğu yerdə yoxdur. Çox axtardı, lakin tapa bilmədi. Bir azdan xan arvadının səsi eşidildi:

– Səni görüm öləsən, hara itmisən?

Turac cavab verdi:

– Xanım, indi gəlirəm.



Otaqda o yan, bu yana qaçdı. Hər tərəfi gəzdi. Xanın arvadının ayaq səsləri eşidiləndə, Turac gözlərində yaş Allaha yalvardı:

– Ay Allah, məni quş elə, canım qurtarsın bu əzablardan!

Xanım ağacla içəri girəndə, Turac quşa dönüb bacadan çıxaraq, göylərə uçdu. Birdən onun yadına düşdü ki, daraq taxçadakı boxçanın içindədir. O, uçub pəncərəyə qonaraq oxudu:

– Tax-tax, daraq, boxçada.

Boxça da ki, taxçada.

O vaxtdan çox illər keçməsinə baxmayaraq, Turac indi də bu sevimli mahnısını oxuyur:

– Tax-tax, daraq boxçada. Boxça da ki, taxçada.

*NAĞILLAR (2-ci sinif)*
*«İnsan iz qoyur»*

***Kitab Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilib (13.01.2005-ci il №46-22-184/16)***

***Müəllif:*** Amanova Solmaz Bayramqulu qızı.

***Tərcüməçi, şeir mətni:*** İmanova Sevinc Nuru qızı, uşaq yazıçısı.

***Kompyuter səhifələyicisi:*** Aelita Frolova, Babayeva Şəhanə.

***Üz və alt qabığında:*** Elmira Abbaslının kuklaları.

***Amanova Solmaz Bayramqulu qızı.***

***2-ci sinif üçün NAĞILLAR*** 32 səh., Bakı, 2009-cu il.

Çap «OSKAR» NPM-nin
Tel: 430-23-10, 430-23-20
Format: 64/92, 1/16. Tiraj: 1000. Sifariş № 940

